**DOI:** https://doi.org/10.59849/2957-3882.2026.1.111

# TARİXİ-MƏDƏNİ ASPEKTDƏN UYĞUR TÜRKLƏRİ

**Müqabil MƏMMƏDOV**
*AMEA A.A. Bakıxanov adına Tarix*
*və Etnologiya institutunun əməkdaşı*
*E-mail: muqu0109@gmail.com*
*ORCİD: https://orcid.org/ 0009-0005-7687-5131*

*Daxilolma tarixi: 06.09.2025*
*Düzəliş tarixi: 21.04.2026*
*Nəşrə təsdiq tarixi: 21.05.2026*

## XÜLASƏ

Etnogenez, uyğur etnosu, Şərqi Türküstan, avtoxton (yerli) , dini memarlıq, freska rəsmləri, uyğur ədəbiyyatı, arxeoloji Məqalədə türkdilli, türkmənşəli uyğur xalqlarının tarixi, məişəti, sənətkarlığı və etnogenez prosesləri araşdırılır. Məlumdur ki, bu xalq Şərqi Türküstanın türk köklü aborigen əhalisi olaraq indiki Sincan-Uyğur avtonom rayonunda (SUAR), ÇXR – də yaşayırlar.

Yazılı mənbələrdə uyğurların adı eramızın III əsrindən etibarən Uyğur xalqının etnik birliyinin formalaşması prosesi VIII əsrdə Türk xaqanlığının süqutundan və Orxon çayı sahilində Uyğur erkən feodal dövlətinin yaranmasından sonra başa çatmışdır.

Uyğurlar ortaq dilə, tarixi ənənələrə, mədəniyyətə və müsəlman inancına malik olan xalqdır. Orta Asiya xalqları onları qaşqarlar, monqollar - xotonlar, çinlilər isə - çantou adlandırırdılar.

Türkşünas alim S.E. Malov qeyd edir ki, “Uyğurlar qədim dövrlərdə Mərkəzi Asiyanın ən mədəni insanları idilər və yüksək inkişaf etmiş şəhər həyatları olub ”.

Uyğurların ənənəvi məşğuliyyəti ticarət, əkinçilik, müxtəlif sənət növləri, heyvandarlıq, balıqçılıq və ovçuluq olmuşdur. Onlar zəngin və fərqli mədəniyyət (monumental dini memarlıq, musiqi və ədəbi əsərlər, freska rəsmləri və miniatürlər) yaratmışlar.

Çin alimləri tərəfindən irəli sürülən müxtəlif fərziyyələrə baxmayaraq, onların əsərlərində, həmçinin rus və Qərbi Avropa uyğurşünaslığında da uyğurların Şərqi Türküstan ərazisində qədim dövrlərdən bəri avtoxton (yerli, köklü) xalq olduqlarına dair mənbələrdə yer alan danılmaz sübutlar təqdim olunur.

***Açar sözlər:*** *Etnogenez, uyğur etnosu, Şərqi Türküstan, avtoxton (yerli, köklü, dini memarlıq, freska rəsmləri, uyğur ədəbiyyatı, arxeoloji tədqiqatlar.*

# УЙГУРСКИЕ ТЮРКИ В ИСТОРИЧЕСКОМ И КУЛЬТУРНОМ АСПЕКТАХ

**Мугабиль МАМЕДОВ**
*Сотрудник Института Истории и Этнологии имени А.А. Бакыханова НАНА*
*E-mail: muqu0109@gmail.com*
*ORCİD: https://orcid.org/ 0009-0005-7687-5131*

*Дата поступления: 06.09.2025*
*Дата исправления: 21.04.2026*
*Дата утверждения к публикации: 21.05.2026*

## АННОТАЦИЯ

В статье исследуется история, образ жизни, ремесла и этногенез тюркоязычных уйгурских народов. Известно, что этот народ проживает на территории современного Синьцзян – Уйгурского автономного района (СУАР), КНР – которые является исконным регионом Восточного Туркестана. Название уйгуров в писменных источниках восходит к I веку нашей эры. Процесс формирование этнического единства уйгурского народа начался в VIII веке, когда был свергнут Тюркский каганат и на берегах реки Орхон возникло ранее уйгурское феодальное государство. После завоевания это прекратилось.

Уйгуры – народ, с общим языком, историческими традициями, культурой и исповедующий ислам. Народы Центральной Азии называют их кашгарами, монголы – хотонами, а китайцы – чантойцами.

Как отмечает тюрковед С.Е. Малов, уйгуры “ в древние времена “ – были самым цивилизованным народом Центральной Азии и вели высокоразвитую городскую жизнь.

Традиционными занятиями уйгуров были торговля, земледелие, различные виды рыбной ловли, животноводство и охота – типичные занятия уйгуров лобноров. Они создали общирную и уникальную культуру (монументальная религиозная архитектура, музыка и искусство, фрески и миниатюры).

Несмотря на различные теории, выдвинутые китайскими учеными их работы, а также российские и западноевропейские исследования уйгурского народа, предоставляют неопровержимые свидетельства из источников о том что уйгуры были автохтонными (местными, коренными) потомками бывшего Восточного Туркестана.

***Ключевые слова:*** *этногенез, уйгурский этнос, автохтон, религиозная архитектура, Восточный Туркестан, фресковые рисунки, уйгурская литература, археологические исследования.*

# HİSTORİCAL AND CULTURAL ASPECTS OF THE UYGHUR TURKS

**Mugabil MAMMADOV**
*A.A.Bakikhanov İnstitute of History and Ethnology, ANAS*
*E-mail: muqu0109@gmail.com*
*ORCİD: https://orcid.org/ 0009-0005-7687-5131*

*Date of submission: 06.09.2025*
*Date of revision: 21.04.2026*
*Date of acceptance for publication: 21.05.2026*

## ABSTRACT

The article examines the history, life, craft and processes of ethnogenesis of the Turkic-speaking and Turkic-Uyghur peoples. It is known that this people is an indigenous people of the aboriginal population of Turkic origin from East Turkestan, modern Siniizyan, who lived in the Uyghur Autonomous Region (SUAR) in the China.

The name Uyghurs has been mentioned in written sources since the 3rd century AD. The process of forming the ethnic unity of the Uyghur people was completed after the collapse of the Turkic Kalanat in the 8th century and the formation of the early Uyghur feudal state on the banks of the Orkhon River.

The Uyghurs are a people who have a common language, historical traditions, culture and Muslim faith. The peoples of Central Asia called them Kashgars, the Mongols called them Khotons, and the Chinese called them Chantou.

Turkologist Malov S.E. notes that “the Uighurs in ancient times were a civilized people of Central Asia with a highly developed urban life.

The traditional occupations of the Uyghurs were trade, agriculture, various types of crafts, cattle breeding, fishing and hunting - typical occupations of the Lop Nor Uyghurs, they created a rich and diverse culture (monumental religious architecture, musical and literary works, fresco painting and miniatures).

Despite the various hypotheses put forward by scholars in their works, as well as in the works of Russian and Western European Uyghurologists, the manuscripts present irrefutable evidence that the Uyghurs have been an autochthonous (local, rooted) people in the territory of former Turkestan since ancient times. Sources also indicate that the Uyghurs have a rich cultural heritage and an ancient tradition of statehood. This is confirmed not only by written sources, but also by the results of archaeological research.

***Key words:*** *ethnogenesis, Uyghur ethnic group, Eastern Turkestan, autochthonous (local), woolen skullcap religious architecture, fresco painting, Uyghur literature, archaeological research.*

**Giriş**

Uyğurlar Şərqi Türküstanın türk köklü aborigen əhalisi olaraq ÇXR-də indiki Sincan – Uyğur avtonom rayonunda (SUAR) yaşayırlar. Tarixi mənbələrin məlumatına görə uyğurların Sincan Uyğur avtonom rayonunda (SUAR) yaşamaqları bizim eranın V əsrinə təsadüf edir. Sincan Çin dilindən tərcümədə "yeni sərhəd" deməkdir. Uyğurların çinlilərlə birlikdə Sincan ərazisində yaşamaqları həm sülh, həm də münaqişə və ixtilaflarla dolu bir dövrə təsadüf etmişdir. Uyğurların etnogenezinin formalaşmasında çinlilərin xüsusi rolu olmuşdur. Uyğur etnogenezinin tədqiqi son dərəcə mürəkkəb məsələdir. Bu gün bu etnik qrup SUAR-da köklü (yerli) əhali sayılır. Ancaq müxtəlif tədqiqatçıların uyğur etnosunun etnogenezi, ərazi məsələsi haqqında fərqli fikirləri mövcuddur. Bəzi alimlərin fikrinə görə, Mərkəzi Asiya etnosunun (uyğur, qazax, qırğız və b.) etnogenez ərazisi Şərqi Türküstandır (Аносов Б.А. 2021, с.53). V.V.Radlovun fikrincə, "Uyğurlar təkcə ən qədim türkdilli tayfalarından biri deyil, həm də çoxsaylı bir türk xalqı idilər və qədim zamanlardan etibarən türk tayfaları arasında xüsusilə qərbdə mühüm mövqe tutmuşdular (Радлов В.В. 1893, с.19-20).

Uyğurlar – Mərkəzi Asiyanın qədim qəbilə ittifaqlarına aid olub, dilləri isə Altay dilləri ailəsinin türk qrupuna daxildir. Onlar islam dininə etiqad edirlər – bu din XIV-XVII əsrlərdə şamanizm, manixeylik, xristianlıq və buddizmi sıxışdıraraq üstün mövqe tutmuşdur.

Antropoloji baxımdan uyğurlar əsasən avropoid irqinə aiddirlər, lakin az miqdarda monqoloid qarışığı da müşahidə olunur. Uyğurlar Mərkəzi Asiyanın ən qədim türkdilli xalqlarından biridir. Onların əcdadları olan Şərqi Türküstanın köçəri tayfaları eramızdan əvvəl III əsrdən eramızın III-IV əsrlərinə qədər Hun tayfa ittifaqında mühüm rol oynamışdılar.

**1. Uyğurların etnogenezi və dövlətçilik ənənələri**

Yazılı mənbələrdə (o cümlədən, VIII əsrə aid Orxon yazılarında) uyğurların adı eramızın III əsrindən etibarən çəkilir. V-VIII əsrlərdə uyğurlar əvvəlcə Jujan xaqanlığının tərkibində idilər. Uyğur xalqının etnik birliyinin formalaşması prosesi VIII əsrdə, Türk xaqanlığının süqutundan və Orxon çayı sahilində erkən Uyğur feodal dövlətinin yaranmasından sonra başa çatmışdır.

Hazırkı Sincan ərazisində üç uyğur dövlətinin mövcudluğu maraqlı hadisələrə səbəb olmuşdur. Məsələn, islamı qəbul etmiş uyğur dövləti – Qaraxanilər (digər adı sə İlikxanlar dövləti) tədricən Orta Asiya ərazisinə (indiki Özbəkistan) yayılmışdır.

Qeyd edək ki, sonralar İlikxanlar (Qaraxanilər) Orta Asiyada monqol tayfası olan qarakitayların vassalı elan olunmuş və 1212-ci ildə müasir özbək türklərinin əcdadları tərəfindən məğlub edilmişdirlər. Eyni zamanda, hazırkı Sincan ərazisində (Kaşqarda) yerləşən Qaraxanilər dövlətinin Şərq hissəsi 1212-ci ildə monqol tayfası olan naymanlara tabe olmuşdur.

Sivilizasiyanın əlavə meyarlarından biri də dövlətin formalaşması prosesidir. Təəssüf ki, mənbələr Uyğur xaqanlığında idarəetmə İnstitutlarının inkişafını tam şəkildə bərpa etməyə imkan vermir. Lakin bununla belə, Uyğur imperiyasında erkən dövlətin bir forması yaranmışdır. Uyğur xaqanlığı qısa müddət ərzində böyük ərazi əhatə edən dövlətə çevrilmişdir.

Müasir uyğur etnik qrupunun formalaşması uyğurların etnogenezi prosesinin nəticəsidir. Uyğur etnik qrupunun formalaşması Şərqi Türküstan bölgəsində bütün tarix boyu müxtəlif etnik qrupların birləşməsi və qarışması əsasında baş vermişdir.

"Əsasən daimi olaraq Kaşqariyada yerləşən doqlatların bəziləri görünür, uyğurlarla digərlərindən daha tez, XVI əsrədək etnik cəhətdən əlaqədə olmuş və böyük miqyasda assimilyasiya olmuşlar" (Юдин, 2008).

Uyğurlar ortaq dilə, tarixi ənənələrə, mədəniyyətə və müsəlman inancına malik olan xalqdır. Qonşu xalqlar da uyğurları müxtəlif yurdlarda yaşayan vahid bir millət kimi qəbul edirdilər. Orta Asiya xalqları onları qaşqarlar, monqollar – xotonlar, çinlilər – çantou adlandırırdılar (Валиханов 1962 г, с. 158).

XIX əsrin bəzi tədqiqatçıları, xüsusilə Ç.Vəlixanov yazırdı ki, yerli türk əhalisi olan qədim uyğurlar dolonlar və nyuqatların (son iki qrup monqolların) törəmələridir və onlar uyğur dilində

danışırlar. İngilis səfiri Bellyu Artuş bəyini təsvir edərkən onun xalis uyğur tayfasından olan tatar olduğunu qeyd etmişdir (Дневник английского посольства в Кашгар в 1873-1974 гг. с. 251).

Hər hansı bir xalqın, o cümlədən uyğurların etnogenezini öyrənərkən tədqiqatçıların diqqətini ilk növbədə xalqın özünün adı çəkir (БСЭ Т. 26 с. 530-531). Van Jiveinin əsərləri bu məsələnin təhlilinə həsr edilmişdir. 1937-ci ildə onun "Öz adının təkamülünün tədqiqi" (Восточный Туркестан в древности и раннем средневековье. с.143) məqaləsi nəşr olundu və müəllif burada tarixin müxtəlif dövrlərinə aid Çin sənədlərinin diqqətlə öyrənilməsi əsasında ilk dəfə olaraq "uyğur" etnoniminin mənasını açmağa çalışmışdır. Van Jivei bu etnonimin mənşəyi haqqında kifayət qədər inandırıcı şəkildə mübahisə etməyi bacarmışdı.

Əvvəlcə Uyğur xaqanlığında idarəetmə sistemi böyük köçəri birliklər üçün ənənəvi idi. Xaqanın başçılıq etdiyi mərkəzi aparat sol (Şərq) və sağ (qərb) şadları (türk titulu), daxili və xarici "böyük buyruqları" (Çin mənbələrində "nazirlər") əhatə edirdi. İmperiyanın maraqlarını tayfalar üzərində təyin olunmuş 11 tutuq (valilər) təmsil edirdi.

Sonralar Uyğur xaqanlığında şəhərlərin artması və oturaq icmalarının sayının çoxalması ilə əlaqədar idarəetmə sistemi mürəkkəbləşməyə başladı. Xəzinənin doldurulmasının mənbəyi olan oturaq əhalinin fəaliyyəti ticarət, sənətkarlıq və əkinçilik istehsalı oldu. Bu sahələrin inkişafını təşviq edən uyğurlar vergi və rüsumlar toplayırdılar.

Ticarət Uyğur şəhərlərinin həyatında və Uyğur xaqanlığının iqtisadi inkişafında az rol oynamırdı. VIII əsrin ortaları – IX əsrin birinci yarısında xaqanlıqdan və Monqolustan ərazisindən keçən tranzit ticarət əməliyyatlarının inkişafı üçün əlverişli şərait formalaşdı. Ərəb xilafəti Avrasiya ticarətinin inkişafı üçün güclü impuls verdi. Nəhəng bir imperiyaya çevrilərək Yaxın Şərq İran, Misir və digər istehsal mərkəzlərini birləşdirən xilafət, eyni zamanda Uzaq Şərq ölkələrinin məhsullarının əsas istehlakçısı idi. O dövrdə xilafət dünya ticarətinin mühüm hissəsini özünün gümüş dirhəmi və malları ilə təmin edirdi. Xilafətin tacirləri Avrasiya çöllərini də əhatə edən geniş ticarət yolları şəbəkəsini əhəmiyyətli dərəcədə genişləndirdilər. Ərəb xilafəti Avrasiya dünya sisteminin mərkəsinə və Asiya-Avropa ticarətinin əsas vasitəçisinə çevrildi (Васютин С.А.Публикация Nomads of the Great steppe 23 декабрь 2023 г. 6).

Ümumiyyətlə, Uyğur xaqanlığının iqtisadi sistemi sivilizasiyanın bir sıra meyarlarına cavab verirdi: oturaq yaşayış məntəqələri, şəhər iqtisadiyyatı, suvarma əkinçiliyi, dəmirin təsərrüfat və hərbi məqsədlərlə istehsalı və geniş istifadə olunması, uzaq məsafələrə ticarət.

İkinci Türk Xaqanlığının süqutu bozqırlarda (səhrada) siyasi bir boşluq yaratdı. Aşina imperiyasının məğlubiyyətini tamamlayan qalib tayfalar – basmillar, uyğurlar və karluqlar – türk tayfaları üzərində hakimiyyət və kaqan titulu uğrunda mübarizəyə başladılar. Ən güclü çıxan uyğurlar oldu və onlar basmillardan hakimiyyəti aldılar (Кляшторный С.Г., Савинов Д.Г. 2005, с. 346).

Uyğurların əsas məşğuliyyətləri – yüksək səviyyəyə çatmış suvarma əkinçiliyi (taxıl bitkiləri, yağlı bitkilər, müxtəlif texniki bitkilər və tərəvəzlər) olmuşdur, həmçinin bağçılıq da geniş yayılmışdır. Bəzi bölgələrdə (o cümlədən Orta Asiya və Qazaxıstanda) uyğurlar əsasən maldarlıqla (qoyun, at, dəvə, inək) məşğul olurdular. Köməkçi məşğuliyyətlərə balıqçılıq, ovçuluq və yığıcılıq daxil idi. Sənətkarlıq sahələri - toxuculuq, xalça istehsalı, keramika və mis qabların hazırlanması inkişaf etmişdi.

**2. Uyğurların sosial-mədəni həyatı və məişət ənənələri**

Uyğurların yaşayış evləri samanla qarışdırılmış döyülmüş gildən və ya çiy kərpicdən tikilir. Meşə olan ərazilərdə evlərin karkası ağacdan hazırlanır və gil ilə doldurulur. Divarlar əsasən təməl qoyulmadan tikilir, bəzi hallarda təməl daşından düzəldilir. Dam düz olur, nazik çubuqlardan döşəmə düzəldilir və bu döşəmənin üzəri qamışdan toxunmuş döşəklərlə örtülür. Üst qatda isə qamış sərilir və onun üstünə təxminən 10 sm qalınlığında torpaq qatı tökülür, daha sonra gil ilə suvanır. Cənub bölgələrində bu düz damlardan qarğıdalı, tərəvəz və meyvələrin qurudulması üçün istifadə olunurdu.

Əvvəllər yaşayış evlərində pəncərələr tavanın ortasında açılmış dəlik şəklində olurdu. Bu dəliklər taxta jalüzlərlə örtülürdü. Hazırda isə pəncərələr divarlarda açılır və onlara naxışlı taxta

barmaqlıqlar qoyulur, bu barmaqlıqlar isə kağızla yapışdırılaraq örtülür. Evin bütün qapı və pəncərələri həyətə açılırdı.

Türkşünas alim S.E.Malov qeyd edir ki, "Uyğurlar qədim dövrlərdə Mərkəzi Asiyanın ən mədəni insanları idilər və yüksək inkişaf etmiş şəhər həyatları olmuşdur" (Малов С.Е. 1951, с. 95).

Türküstan əhalisi olan dinlinqlər, çileslər, nujilər, qaoqyuilər (Elin mənbələrində) Şərqi Türküstanın qədim etnik əsasını təşkil edir (Радлов В.В. 1893 г.с.127).

Yüz il əvvəl, XIX əsrin 70-ci illərində İli bölgəsinin etnik tərkibi olduqca rəngarəng idi. Şəhərlərdə və iri kəndlərdə üstünlük təşkil edən yerli uyğur-tarançılərlə yanaşı, İli bölgəsinin dağlarında və çay vadilərində yaşayan qalmaqlar, qırğızlar və qazaklar köçəri həyat tərzi sürürdülər. Qonşuluqda isə oturaq həyat yaşayan dunqanlar və idarəetmə ilə məşğul ordu nümayəndələri - mançurlar və çinlilər yaşayırdı (БСЭ Т 26, 206-207. 5). N.N.Pantusovun məlumatına görə (Пантусов Н.Н. 1878 г.15), həmin dövrdə Kulca bölgəsində çinli, mancur, dunqan, monqol, uyğur sənətkarları çalışırdılar və onlar əsasən müvafiq etnik qruplara xidmət göstərirdilər. Görünür, artıq o zamandan iki əsas mədəni ənənənin qarşılıqlı münasibət prinsipi formalaşmışdı: uyğur-müsəlman və çin-mancur-monqol ənənələri. Sonralar, XX əsrin ortalarına qədər, bu prinsipin mahiyyət etibarilə dəyişmədiyi sahə tədqiqatları ilə təsdiqlənir.

XX əsrin birinci yarısında Kulca bölgəsində yaşayan uyğur qadınları az sayda bəzək əşyası taxmağı adət etmişdilər: adi günlərdə sırğalar, bir-iki bilərzik, üzüklər və hörüklərə bağlanan bəzəkli lentlər, bayram və xüsusi mərasimlərdə isə baş və sinə bəzəkləri (mərcan muncuqlardan ibarət boyunbağı istisna olmaqla). Yəni, ümumilikdə Kulcalı qadınların istifadə etdiyi bəzək dəstləri çox böyük deyildi, həmçinin sadalanan kateqoriyaların hər birində bəzək növləri də o qədər müxtəlif deyildi. Qızlar tez-tez qızıl və gümüş saplarla, rəngbərəng ipəklə işlənmiş, bəzən muncuq, boncuk, sikkə və s. ilə bəzədilmiş "doppa" adlanan tirmə papaq taxırdılar (Захарова И.В. 1959 г, с. 275 – 276). Eyni tipli papaqlardan qadınlar da istifadə edirdilər, lakin onlar bunu həmişə böyük ağ örtük – üz üçün "vual" (liçek) və soyuq havalarda üzərinə geyilən enli kürk haşiyəli isti papaq (tumaq) ilə birlikdə taxırdılar.

Məlumatlarımıza görə, tarançı qadınları tirmə papaqlarının və baş geyimlərinin üzərində bəzən zərgərlik bəzəkləri də taxırdılar. Bu bəzəklərdən biri "altın kadak" adlanırdı. Bu, dörd üçbucaq və on altı kiçik düzbucaqlı və ya oval formalı, nazik basma üsulu ilə hazırlanmış qızıl və ya qızıl suyuna salınmış lövhədən ibarət idi. Bəzən bu lövhələr nar daşları ilə bəzədilirdi.

Gənc uyğur qızları hörüklərinin uclarına bir neçə gümüş detal və ucunda qara ipək püşküllər olan uzun mərcan asqılar (tujun, calya) taxırdılar. Çox hallarda əsasən mərcanlardan düzəldilmiş muncuq sapına ön tərəfdən bir-üç metal medal asılırdı. Ən çox yayılanı isə xüsusi naxışlarla bəzədilmiş, içində amuletlər olan qutular, yəni ladankalar idi (Викторова Л.Л. 1977 г, с. 186).

Əslində, Şərqin bir çox xalqlarında olduğu kimi, onlar da ladankalarda "buxur", müsəlman amuletləri gəzdirirdilər.

Şərqi Türküstanda hörüklərə ip hörmə ənənəsi XIX əsrin əvvəllərində də mövcud olmuşdur. E.Timkovski və N.Biçurin qeyd edirdilər ki, "qızlar yeddi hörüyünə qırmızı ip və ya hörmə ip hörürlər", evli qadınlar isə toydan bir ay sonra saç düzümünü dəyişərək artıq bir dənə hörük hörür və onu qırmızı hörmə ip ilə sarıyırdılar. Hörüyün ucuna isə yenə də qırmızı saplardan "düzəl" - saçaqlı bəzəklər (saç bağı) hörürdülər (Бичурин Н.Я. 1829 г, с.204).

Uyğurlar arasında kişi birlikləri – Ottuz ogul geniş yayılmışdır. Ottuz ogul uyğur dilindən tərcümədə "Otuz oğlan" və ya "otuz atlı" deməkdir (Чвырь Л.А. 2006 г, с. 124). Tipoloji olaraq, bu birliklər seçilmiş liderlərin rəhbərlik etdiyi müəyyən yaş qrupuna aid kişilərdən ibarətdir.

"Ottuz ogul"un vəzifələrinə hər hansı formada birlik üzvlərinin qarşılıqlı yardımı və dəstəyi daxildir.

Məşrəp - uyğurların müşahidə etdiyi qədim adətdir, başqa sözlə, "istirahət axşamı"dır. O, payızın sonlarında başlayır və yaza qədər davam edir. Belə məclislərin iştirakçılarına "ottuz atlı" – otuz oğul deyilir.

Şərqi Türküstan uyğurları hər gün soyuq silah, milli uyğur bıçaqları "Pçak" taxmaq ənənəsini qoruyub saxlamışlar. Əsrlər boyu "pçak" uyğurların kişi simvolu və ənənəvi silahı olmuşdur. Hər yerdə kompozit qulplu məşhur uyğur bıçaqları və bıçağın üzərində ərəb qrafikası ilə həkk olunmuş ustad loqosu var. Kəmərlərində ənənəvi bıçaq olan fiqurlar isə qaranlıqda fırlanır (Роман Грузов 2007 г,16).

Nikahlar yalnız həmməzhəblər arasında bağlanır. Qız uşağını başqa məzhəbə qulluq edən şəxsə ərə vermək qəti şəkildə pislənilir. Ənənəvi olaraq, bəy (gəlin) seçimində həlledici amil valideynlərin iradəsidir. Nikah aktını din xadimi – axund, imam təsdiq etməlidir. Adətə görə, imam Qurandan bir surə oxuduqdan sonra yeni evlənənlər suda isladılmış çörək yeyirlər və ona duz, süd, çay əlavə edilir (Сюэ Цзунчжен 2001 г,19).

Uyğurların ənənəvi məşğuliyyətləri ticarət, əkinçilik, müxtəlif sənət növləri, bəzi qruplarda isə otlaq heyvandarlığıdır (kumullar, maçinlər və s.). Balıqçılıq və ovçuluq lobnor uyğurlarının tipik məşğuliyyətləri idi.

Uyğurlar zəngin və fərqli mədəniyyət (monumental dini memarlıq, musiqi və ədəbi əsərlər, freska rəsmləri və miniatürlər) yaratmışlar.

Qədim dövrlərdən bəzi uyğurların zəngin ədəbi ənənəsi – folkloru, nəsri, poeziyası, dini ədəbiyyatı (buddizm və manixeyizmin dini mətnlərinin tərcümələri) var. Bu bölgənin qədim türk ədəbiyyatının əsərlərindən: Yusif Balasaquninin "Səadət verən birlik" (XI əsr), Mahmud Kaşqarinin "Türk ləhcələri lüğəti" (XI əsr), Əhməd Yuqnakinin "Həqiqətlər hədiyyəsi" etnik-didaktik poemasını (XII əsrin sonu XIII əsrin əvvəlləri) göstərə bilərik. Uyğur şair və yazıçılarından Bilal Nazim, Ziya Səmədi, Lütfulla Mütəllip, İzim İsgəndərov, Abdurehim Nizari, Turduş Axun Qəribi, Novruz Axun Ziyai, Bilal Nazim, Sadir Pəlvan, Molla Şakir və b. ədəbiyyatda yeniləşdirmə işləri aparırdılar.

Orxon Yenisey abidələri, Mahmud Kaşqarinin "Divanü lügat-it-Türk" əsəri bu bölgələrdə yaşayan əhalinin ədəbiyyatını öyrənməyə imkan verir.

Uyğur ədəbiyyatşünasları öz ədəbiyyat tarixlərini üç mərhələyə bölürlər: birinci mərhələni "Klassik dövr ədəbiyyatı" adlandırırlar. Buraya 1500 ilə yaxın bir dövrün ədəbi-bədii əsərlərini daxil edirlər. İkinci mərhələ "Müasir dövr ədəbiyyatı adlandırılır və buraya XX əsrin başlanğıcından 1949-cu ilədək yaradılmış ədəbi-bədii əsərlər daxil edilir. Üçüncü mərhələ "Bugünkü zamanın ədəbiyyatı" adlandırılır. Buraya ideoloji yönlü, təbliğat xarakterli, sosializmi tərənnüm edən ədəbi nümunələr daxil edilir.

Qədim uyğurların tarixşünaslığında "Tokuz-Oğuz" probleminin nəzərdən keçirilməsinin nəticələrinə əsasən belə qənaətə gəlmək olar ki, tokuz-oğuzların etnik tərkibinin oğuz versiyasından imtina edilməlidir. Bu fikri dəstəkləyən türkoloqlar ilk növbədə "Oğuz" və "Tokuz-Oğuz" adlarının uzlaşmasına diqqət yetirmişlər. Uyğurşünas alimlərin əksəriyyəti Tokuz-Oğuzları və uyğurları eyni xalq hesab edirlər (Тихонов Д.И. 1966, с. 45).

Uyğurların maddi mədəniyyətinin dərin kökləri var və məhz uyğurlar Mərkəzi Asiya çöllərində və Cənubi Sibirdə şəhərləri və qalaları olan oturaq sivilizasiya ilə həyat qurmağa başladılar (Кызласов Л.Р. 1981 г, с. 52-54).

Orxon yazılarının ilk tədqiqatçılarından biri olan danimarkalı türkoloq V.Tomsen hesab edirdi ki, erkən orta əsr oğuzları ilə uyğurlar eynidir. Onun fikrincə, qrupun adı Oğuz, tayfanın başında isə uyğurlar dururdu (Аристов Н.О. 1873, с. 206-207).

Uyğurların tarixi qədim dövrlərə - tarixin ənginliklərinə gedib çıxır. Uyğurlar Mərkəzi Asiyanın ən qədim xalqlarından biridir (Rəcəbov Əbülfəz. 1996, s. 5).

Uyğur qəbiləsinin adı tarixə gec düşmüşdür. Qəbilənin adı onun Böyük qumlu çöldən, yəni Qobi səhrasından şimala keçməsindən sonra Çin salnamələrinə düşmüşdür. Lakin şübhə yoxdur ki, qəbilə hələ adı tarix səhifələrinə düşməzdən əvvəl onunla ittifaqda olan qəbilələrin tərkibində mövcud idi. Həmin qəbilələr ittifaqının ümumi adı olmuşdur.

Uyğur etnonimi ilk dəfə VIII əsrə aid qədim türk rum yazılarından məlumdur. Qədim Çin mənbələrində "uyğur" etnonimi "xueyxe" formasındadır. Tədqiqatçılara görə uyğurların qədim

əcdadları Çin mənbələrində dinlin, qaqoy, xueyxe və başqa adlarla məlum olmuş tayfalardır (Агаджанов С.Т. 1975, с. 9).

M.Kazımbəy XVII əsr Xivə xanı və tarixçisi Əbülqazi Bahadır xanın (1603-1663) fikri ilə razılaşaraq qeyd edir ki, "uyğur" sözü şəxs adından etnonimə sonralar çevrilmişdir.

M.Kazımbəy yazır ki, uyğur sözü qədim türk dilində uymaq, tərəfdar olmaq, müttəfiq olmaq mənasında işlənir. O, yazılı mənbələri təhlil edərək qeyd edir ki, xoyxorlar heç də İ.Biçurinin yazdığı kimi monqol mənşəli tayfa yox, əsl türk tayfalarıdır. Bundan başqa o belə hesab edir ki, yazılı mənbələrdə olan tçesselər və xoyxorlar eyni xalqdır, yəni uyğurlardır. Bununla da, müəllif özündən əvvəl Qərb və Şərq mənbələrində bu sahədə hökm sürən terminoloji dolaşıqlığa son qoydu. Daha sonra M.Kazımbəy uyğurların qədim tarixindən bəhs edir. "Doqquz oğuz" və "On uyğur" tayfa ittifaqlarının yerləşdiyi ərazini müəyyənləşdirir. Qeyd edək ki, bu tayfaların özləri də 120 oymağa ayrılırdı. Sonralar uyğurların ümumi hökmdarları "idikut" adlanmağa başladı. Çokan Vəlixanovun əsərinin sonuncu fəslində xoyxorların mülki tarixindən söhbət açılır, xanlar haqqında qısa məlumat verilir və Çinlə uyğur xanlığı arasında olan mürəkkəb iqtisadi-siyasi münasibətlərdən bəhs edilir (Kərimov. 1994).

Çin alimləri tərəfindən irəli sürülən müxtəlif fərziyyələrə baxmayaraq, onların əsərlərində, həmçinin rus və Qərbi Avropa uyğurşünaslığında da uyğurların Şərqi Türküstan ərazisində qədim dövrlərdən bəri avtoxton (yerli, köklü) xalq olduqlarına dair mənbələrdə yer alan danılmaz sübutlar təqdim olunur. Mənbələr həmçinin uyğurların son dərəcə zəngin mədəni irsə qədim dövlətçilik ənənəsinə sahib olduqlarını göstərir. Bu, yalnız yazılı mənbələrdə deyil, həm də arxeoloji tədqiqatların nəticələri ilə təsdiqlənir (Турсун 1997 г, с. 37).

**Nəticə**

Məqalədə uyğur xalqının etnogenezi, qədim dövlətçilik ənənələri, sosial-iqtisadi həyatı və zəngin maddi-mənəvi mədəniyyəti geniş şəkildə araşdırılmışdır. Tədqiqat göstərir ki, uyğurlar Mərkəzi Asiyanın ən qədim türk xalqlarından biri olmaqla yanaşı, Şərqi Türküstan ərazisinin qədim və avtoxton əhalisi kimi formalaşmışlar. Tarixi mənbələr, Çin salnamələri, Orxon-Yenisey abidələri və müxtəlif türkoloqların araşdırmaları uyğurların qədim dövrlərdən etibarən regionun siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynadıqlarını təsdiq edir.

Araşdırma nəticəsində müəyyən olunur ki, Uyğur xaqanlığı yalnız köçəri tayfa birliyi deyil, eyni zamanda erkən dövlətçilik institutlarına malik siyasi qurum olmuşdur. Uyğurların şəhərsalma, suvarma əkinçiliyi, sənətkarlıq, ticarət və idarəetmə sahələrində qazandıqları nailiyyətlər onların yüksək inkişaf etmiş sivilizasiya yaratdıqlarını göstərir. Xüsusilə Böyük İpək Yolunun mühüm hissəsində yerləşmələri uyğurların iqtisadi və mədəni əlaqələrinin genişlənməsinə şərait yaratmışdır.

Bununla yanaşı, uyğurların zəngin folkloru, ədəbiyyatı, dini dünyagörüşü, ailə-məişət ənənələri və maddi mədəniyyət nümunələri onların milli kimliyinin qorunub saxlanılmasında mühüm rol oynamışdır. Məqalədə təqdim olunan faktlar sübut edir ki, uyğurlar əsrlər boyu müxtəlif siyasi və etnik təsirlərlə qarşılaşsalar da, öz dillərini, mədəniyyətlərini və etnik özünəməxsusluqlarını qoruyub saxlaya bilmişlər. Bu baxımdan uyğur xalqının tarixi və mədəni irsi türk xalqlarının ümumi mədəniyyət tarixinin ayrılmaz tərkib hissəsidir.

## ƏDƏBİYYAT SİYAHISI

Аносов Б.А. Особенности этногенез уйгурского национального меньшинства на территории современной К.Н.Р. 2021, стр. 53.

Аристов Н. О Кульдже – Ежегодник Туркестанского края. Вып. 2. Таш., 1873, стр. 206-207.

Агаджанов С.Т. огузская проблема и задачи ее изучения // Тюркологический сборник. М.; Наука, 1975, с. 9.

Бичурин Н. Описание Джунгарии и Восточного Туркестана. СПб., 1829, стр. 204.

Большая Советская Энциклопедия. Москва, 1917, третье издание. Т. 26, стр. 206 – 207, 530 – 531.

Васютин С.А. Публикация Nomads of the Great steppe. 23 декабрь, 2023 г.

Восточный Туркестан в древности и раннем средневековье. М., 1992, стр. 143.

Викторова Л.Л. Монгольская одежда СМАЭ. 1977, т. 32, стр. 186.

Захарова И.В. Материальная культура уйгуров Советского Союза. ТИЭ. 1959, т. 47, стр. 275-276.

Кашмир и Кашгар Дневник английского посольства в Кашгар в 1873-1974 гг., стр. 251.

Кляшторный С.Г., Савинов Д.Г. Степные империи древней Евразии. СПб: 2005, стр. 346.

Кызласов Л.Р. Культура древних уйгур (VIII-IX вв.) М., 1981, стр. 52-54.

Малов С.Е. Памятники древнетюркской письменности. М., Л., 1951, стр. 95.

Набиджан Турсун. Вопросы этногенеза уйгуров в китайской историографии. 1997 г., стр. 37.

Пантусов Н.Н. Стастические сведения по Кульджинскому району – Материалы для статистики Туркестанского края. Вып. 4, СПб., 1878 г.

Роман Грузов «Об исчезающей натуре Кашгара», Афиша-Мир №034, 1 февраля, 2007 г.

Rəcəbov Əbülfəz. Uyğurlar. Bakı, Azərnəşr, 1996, s. 5.

Радлов В.В. К вопросу об уйгурах – СПб, 1893, стр. 19-20, стр. 127.

«Синьцзян: Этнографический очерк», Сюэ Цзунчжен,2001 г.

Тихонов Д.И. Хозяйство и общественный строй Уйгурского государства X-XIV вв. М., Л.; Наука, 1966, стр. 45.

Чвырь Л.А. Обрядь и верования уйгуров в XIX-XX вв.: Очерки народного ислама в Туркестане; -М.: Восточная литература. 2006, стр. 124.

Чокан Валиханов. Собрание сочинений. Том 3, 1962 г. Стр. 158.

Emil Kərimov. Mirzə Kazımbəy uyğurlar haqqında. Zaman qəzeti, № 51 (292) 6, VIII, 1994.

Юдин В.П. О родоплеменном составе могулов Могулистана и Могулии. Архивированная копия Дата обращения 28 февраля 2010. Архивировано 5 февраля, 2008 года.